

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 6 (20.907)

*14 yanvar 2014-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik




**Ulu öndər Heydər ƏLİYEV:** ***Mən ümumiyyətlə demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. O, sübut etdi ki, Vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər.***

# İnkişaf edən qədim Naxçıvan

**Siyasi fəaliyyətdə uğur qazanmaq üçün ictimai inam və etibar başlıca şərtdir. Yalnız öz fəaliyyətini xalqa layiqli xidmət prinsipi üzərində quran və bunu əməli işi ilə sübuta yetirən şəxslər yüksək etimada layiqdirlər. Elə bu səbəbdən də ictimai rəyə əsaslanan, insanların maraq və mənafeyinə xidmət edən siyasi fəaliyyət hər zaman dəstəklənir, təqdir olunur. Müstəqillik dövründə muxtar respublikada inkişafın mükəmməl modeli yaradılmışdır. Bu model dövlət müstəqilliyimizin və davamlı inkişafın qarantı olan Heydər Əliyev siyasi xəttinə sonsuz sədaqət və xalqa xidmət prinsipləri üzərində qurulmuşdur.**

Böyük fransız maarifçisi Volter vaxtilə yazırdı ki, "İş ideya üçün yaranmır – ideya iş üçün yaranır". Bu illərdə Naxçıvan Muxtar Respublikasının keçdiyi hərtərəfli inkişaf yolu da məhz xalq və dövlət üçün formalaşan ideyanın real həyatda təzahürünə çevrilmişdir. Bu gün Naxçıvanda hansı sahəyə baxsan, orada kompleks islahatların aparıldığının şahidi olursan. Ötən dövr ərzində elə böyük nailiyyətlər əldə edilmişdir ki, bu uğurların blokada şəraitində qazanılması inanılmaz gerçəklikdir. Naxçıvanın inkişafdan intibaha qovuşması düzgün idarəetmənin nəticəsi, Vətən sevgisinin, yurd sahibliyinin misilsiz nümunəsidir.

Naxçıvan Muxtar Respublikasında sosial həyatın bütün sahələrində analoqu olmayan uğurların qazanılmasında bir başlıca səbəb vardır: o da ulu öndərimizin yoluna sədaqət və bu yolun davam etdirilməsidir. Müdriklərin fikrinə görə, "Qısa vaxtda böyük izlər qoymaq hər şəxsə qismət olmur. Bunu edənlər əsl siyasi xadimlərdir". Muxtar respublikamızda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan nəticələr seçilən düzgün siyasi xəttin bəhrəsi olmaqla yanaşı, həm də rəhbər faktorunun real siyasi fəaliyyətdə təsdiqidir. 1996-cı ildən ötən dövrdə muxtar respublikada bütün makroiqtisadi göstəricilərin artım tempi təmin edilmiş, 2013-cü ildə Ümumi Daxili Məhsulun həcmi 1995-ci ilə nisbətən 54 dəfə, sənaye məhsulunun həcmi 95 dəfə, əsas kapitala yönəldilən investisiyalar 340 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 9 dəfə, nəqliyyat sektorunda yük daşınması 24 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 107 dəfə, pərakəndə əmtəə dövriyyəsi 30 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 47 dəfə, ixracın həcmi 201 dəfə, əhalinin gəlirləri isə 55 dəfə artmışdır. Bir sıra əsas göstəricilər baxımından son illərdə yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar muxtar respublikamızın yarandığı 1924-cü ildən keçən 70 ildən artıq bir dövrdə əldə olunanları xeyli üstələyir. Diqqəti bir fakta cəlb edək: əgər 1996-cı ilə qədər muxtar respublikada ümumilikdə 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, ötən 18 ildə onların sayı 8 dəfə artaraq 438-ə çatmışdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, cəmiyyətin inkişafının əsas şərtlərindən biri elm və təhsildir. Müasir dövrün tələblərinə cavab verən kadr potensialının formalaşdırılmasında, çevik və işlək mexanizmlər üzərində dövlət idarəçiliyi sisteminin yaradılmasında bu, vacib məsələdir. Bu baxımdan Naxçıvandakı elm və təhsil quruculuğu regionda yeniləşmənin əsas hərəkətverici qüvvəsi rolunu oynayır. Vaxtilə tarixinin orta əsrlər dövrü belə, lazımi səviyyədə tədqiq edilməyən Naxçıvanın bu gün 5 min illik tarixə malik şəhər mədəniyyəti öyrənilmiş, ilkin yaşayışın və şəhərsalma yerinin arqumentləri kimi Naxçıvandakı tarixi abidələrin pasportlaşdırılması işi başa çatdırılmış, Naxçıvan Duzdağ mədəniyyəti yeni elmi istiqamət kimi müəyyənləşdirilmiş, aktual məsələlərə həsr olunmuş beynəlxalq konfrans və simpoziumlar keçirilmişdir. Ali Məclis Sədrinin xüsusi Sərəncamı əsasında "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması da bu qədim yurdun keçmişinin yaşadılmasına, bu günün yaradılmasına və gələcəyinin təmin edilməsinə olan dərin inamın göstəricisidir.

Təhsil infrastrukturunun yenilənməsi, yeni məktəb binalarının tikilməsi dünya təhsil sisteminə inteqrasiya istiqamətində atılan mühüm addımlardır. 1996-cı ildən başlayaraq muxtar respublikada müasir informasiya texnologiyaları ilə təmin olunmuş 220 məktəb binası istifadəyə verilmiş, orta ixtisas və ali təhsil məktəbləri üçün tədris korpusları tikilmişdir. Bu gün Havuş, Bist, Nəsirvaz, Kükü, Şahbulaq, Teyvaz kimi ucqar dağ kəndlərinin məktəblərində şagirdlərin kompüterlərdən, elektron lövhələrdən, müasir laboratoriyalardan, fondunda on minlərlə ədəbiyyat olan kitabxanalardan və internetdən istifadə etməsini təkcə təhsilin inkişafı sahəsində görülən cari işlər kimi səciyyələndirmək olmaz. Bu, bütövlükdə, ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi, xalqın və dövlətin gələcək müqəddəratına hesablanmış ***"İqtisadi resursların insan kapitalına çevrilməsi"*** prinsipinin konkret bir regionda əməli iş müstəvisinə keçirilməsinin əyani ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında rayonların tarazlı inkişafı təmin edilmiş, kəndlə şəhər arasındakı fərq aradan qaldırılmışdır. Şəhər və rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində istifadəyə verilən yeni sosial obyektlər, tikilən inzibati binalar, yaradılan istehsal sahələri, açılan iş yerləri, ilk növbədə, əhalinin sosial problemlərinin həllinə və nəticə etibarilə insanların məskunlaşmasına, bölgələrin inkişafına səbəb olmuşdur. Zəngin tarixi və mədəniyyəti, gözəl təbiəti ilə seçilən qədim Naxçıvan bu gün həm də yüksək yaşayış səviyyəsi, abad yaşayış məntəqələri ilə Azərbaycanın nümunəvi regionlarından birinə çevrilmişdir.

İntibaha qovuşan müasir Naxçıvanın inkişafında əsas xarakterik cəhətlərdən biri də ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasıdır. Muxtar respublikada bu iki amil həyata keçirilən islahatların prioritet istiqamətini təşkil edir. Əgər 1996-cı ildə muxtar respublikada 1 su elektrik stansiyası vardısa, hazırda elektrik stansiyalarının sayı 6-ya çatdırılmış, yaşayış məntəqələri tamamilə qazlaşdırılmışdır. 2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin etibarlı ərzaq məhsulları ilə təminatına dair və 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının qəbul olunması və icrası muxtar respublikada yerli istehsalın həcminin artmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına geniş imkanlar yaratmışdır. Bir zaman zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 106-sı ərzaq, 226-sı qeyri-ərzaq olmaqla, 332 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir, Naxçıvanın ixrac potensialı artırılır.

Ölkə Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, dövlətimizin ən qiymətli sərvəti onun vətəndaşlarıdır. Məhz bu prinsip üstün tutulmaqla əhalinin sağlamlığının qorunması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası muxtar respublikada səhiyyə sahəsində reallaşdırılan mühüm islahatlardandır. 1996-cı ildən ötən dövrdə muxtar respublikada 230-a yaxın səhiyyə ocağı tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Müasir diaqnostika-müalicə və doğum mərkəzlərində, rayon mərkəzi xəstəxanalarında, dispanserlər, səhə xəstəxanaları, həkim ambulatoriyaları və feldşer-mama məntəqələrində insanların müayinə və müalicəsi günün tələbləri səviyyəsində təşkil olunmuşdur.

Muxtar respublikada həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Buna yüzlərlə misal gətirmək olar. Elə götürək son illər şəhər və rayon mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirlərini. Muxtar respublikanın mövcud təbii potensialından istifadə edilməklə yüksək mühəndis-texnoloji yeniliklər əsasında aparılan bu işlər ən müasir infrastrukturun və insanların kommunal-məişət şəraitinin yaxşılaşdırılmasına hesablanıb. Müasir dövrdə inkişafın başlıca şərtlərindən biri olan informasiya-kommunikasiya texnologiyalarının təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə geniş tətbiqi, elektron kitabxanaların yaradılması, əhaliyə göstərilən rabitə xidmətlərinin səviyyəsinin yüksəldilməsi üçün yeni nəsil ATS-lərin quraşdırılması, hətta ucqar dağ kəndlərinin fiber-optik bağlantılarla təmin olunması və genişzolaqlı internet xidmətinin göstərilməsi inkişafın tərkib hissələridir.

Görülən işlər muxtar respublikada insanların yaşayış səviyyəsini də yaxşılaşdırmışdır. Təkcə 2013-cü ildə əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 358 min kvadratmetrdən artıq yaşayış sahəsi tikilmişdir ki, bu da 1995-ci illə müqayisədə 21 dəfə çoxdur.

Əldə olunan nailiyyətlər muxtar respublikanın keçdiyi intibah yolunun bəhrələridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanın inkişafı barədə demişdir: ***"Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına layaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".***

Müasir Naxçıvan bu gün tərəqqi və inkişafın ən yüksək zirvəsindədir. Bu zirvədən baxdıqda insan iradəsinin, zəhmətinin nəyə qadir olduğu aydın görünür. Artıq naxçıvanlıları nə ərzaq və enerji qıtlığı, nə blokada çətinlikləri, nə də düşmən təhlükəsi qorxudur. Bu gün muxtar respublikada əhalinin həyat səviyyəsi getdikcə yüksəlir, insanların torpağa bağlılığı, yurd sevgisi artır, yaşayış məntəqələri müasirləşir, əsas ərzaq məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir, torpaqlarımız güclü və nizami ordu hissələri tərəfindən qorunur, Naxçıvan şəhəri zirvə görüşlərinə, beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir...

2014-cü ildə Naxçıvan muxtariyyətinin 90 yaşını qeyd edəcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2013-cü il dekabrın 28-də keçirilmiş dördüncü çağırış səkkizinci sessiyasında Ali Məclisin Sədri tərəfindən 2014-cü il Naxçıvanda "Muxtariyyət ili" elan olunmuşdur. Şübhəsiz ki, "Muxtariyyət ili"ndə də Naxçıvanda hərtərəfli inkişaf təmin ediləcək, abadlıq-quruculuq işlərinin həcmi, sosial-iqtisadi inkişaf dinamikası və əhalinin rifah halı daha da artacaq, 2014-cü il tariximizə daha bir yüksəliş və tərəqqi dövrü kimi yazılacaqdır.

***Xarizmatik şəxsiyyətlər siyasi varislik ənənələri formalaşdıraraq böyük müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin edir, gələcəyə hesablanmış ideoloji-siyasi və iqtisadi əsaslara söykənən güclü idarəetmə modeli yaradırlar. Artıq belə bir model göz qabağındadır – bu, inkişafın "Naxçıvan modeli"dir.***

**"Şərq qapısı"**

# Ötən ilin siyasi mənzərəsinə baxış

## *İl ictimai-siyasi həyatda fəallıq və qazanılan uğurlarla yaddaqalan olub*

***Əslində, ötən 2013-cü ildə ictimai siyasi həyatda əvvəlki dövrlərdə olduğu kimi, hansı siyasi proseslərin əsas tutulacağının ilk konturlarını hələ 2012-ci il dekabrın 22-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından sonra müəyyənləşdirmək mümkün idi. Belə ki, artıq sessiyada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar 2013-cü ilin "Heydər Əliyev ili" elan edilməsi muxtar respublikada daha böyük uğurların qazanılacağının mesajı idi. Naxçıvan Muxtar Respublikasının yolu Heydər Əliyev yoludur və Heydər Əliyev tərəfindən müəyyənləşdirilən yol Naxçıvanın inkişafını və tərəqqisini təmin edir. Sessiyada başa çatan ilin yekunlarının müzakirəsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatının və Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyəti rəhbərinin məlumatının dinlənilməsi və müzakirəsi qarşıdakı ildə muxtariyyətdə insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində aparılan demokratik islahatların davam etdiriləcəyinə, muxtar dövlətin Azərbaycanın ümumi dövlətçilik maraqlarına uyğun olaraq, Avroatlantik məkana inteqrasiyası istiqamətində bir sıra addımlar atacağına işarə idi.***

2013-cü ilin siyasi xəritəsində ilk hadisə yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayin ilə görüşü oldu. Görüşdə Azərbaycan-İran münasibətlərinin parlamentlərarası dostluq qrupları səviyyəsində də inkişafından danışıldı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

2013-cü il fevral ayının 4-ü Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirə ilə yaddaqalan oldu. 2012-ci ildə qazanılan uğurlardan bəhs edildi, qarşıda duran vəzifələr müzakirə olundu. Yol verilən nöqsanların miqyasına uyğun qərarların qəbul edildiyi müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri birmənalı şəkildə vurğuladı: ***"Qeyd olunan nöqsan və çatışmazlıqlar aidiyyəti qurumların məsuliyyət hissinin artırılmasını tələb edir. Qarşıdakı dövr ərzində istər mərkəzi, istərsə də yerli icra hakimiyyətləri işə münasibəti kökündən dəyişməlidirlər".***

9 fevral 2013-cü il. Naxçıvanın muxtariyyət gününə təsadüf edən bu əlamətdar tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yeni binasının açılışı oldu, başqa sözlə desək, Naxçıvanın təkcə tarixini, mədəniyyətini deyil, həm də inkişaf istiqamətlərini araşdırmalı, öyrənməli olan strateji araşdırma mərkəzi yaradıldı. Açılış mərasimində qeyd edildi ki, Azərbaycanşünaslığın üzvi tərkib hissəsi olan Naxçıvanşünaslığa dair irsin, xüsusilə Naxçıvan Muxtar Respublikasının tarixinin, elmi, ədəbi mühitinin, incəsənətinin, təbii sərvətlərinin, mədəniyyətinin, habelə Naxçıvanın görkəmli şəxsiyyətlərinin həyatı və fəaliyyətinin öyrənilməsi, təbliğ olunması Naxçıvanşünaslıq Mərkəzinin əsas fəaliyyət istiqamətidir.

Ötən il martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İslam İnkişaf Bankının vitse-prezidenti Birama Bobakar Sidibenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. İslam İnkişaf Bankının ölkəmizdə həyata keçirdiyi layihələrin özünü doğrultduğunu qeyd edən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası ilə İslam İnkişaf Bankı arasında 2000-ci ildə qurulan əməkdaşlıq əlaqələrinin ötən müddətdə uğurla inkişaf etdiyini bildirdi və əməkdaşlığın gələcək perspektivləri müzakirə edildi.

2013-cü il aprel ayının 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rafael Harpaz ilə görüşdü. Görüşdə Azərbaycanın bu qədim diyarının hərtərəfli inkişafının böyük məmnunluq doğurduğunu qeyd edən səfir muxtar respublikada əldə edilən inkişafı uğurlu sosial-iqtisadi siyasətin nəticəsi kimi dəyərləndirdi.

Mayın 9-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə yubiley tədbiri keçirildi. Təntənəli mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ölkəmizin gələcək inkişafının yalnız Heydər Əliyev yolu ilə bağlı olduğunu bir daha vurğuladı: ***"Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir".***

Ötən il Azərbaycanın siyasi həyatına və tarixinə həm də dünyanın ən ali qurumunun – BMT-nin Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyü ili kimi də düşdü. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət xətti ölkəmizi dünyanın zirvə dövlətləri sırasına qaldırdı. Mayın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Antonius Bruk və onu müşayiət edən nümayəndə heyəti ilə görüşdü. Görüşdə beynəlxalq təşkilatın nümayəndəsi təmsil etdiyi təşkilatla Azərbaycan, eləcə də onun Naxçıvan Muxtar Respublikası arasındakı mövcud əməkdaşlığın məmnunluq doğurduğunu vurğuladı, fəaliyyəti dövründə bu əlaqələrin inkişafı istiqamətində səyini artıracağını qeyd etdi.

İyunun 14-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Qurtuluş Gününün 20-ci ildönümü münasibətilə tədbir keçirildi. Ali Məclisin Sədri tədbirdə çıxış edərək dedi: ***"Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, bizim hamımız üçün müqəddəsdir. Ona görə ki, ötən əsrin 90-cı illərində başımızın üstünü almış təhlükənin sovuşmasına, milli dövlətçiliyimizin xilasına və bu gün müstəqil Azərbaycanda sabitlik, əmin-amanlıq şəraitində yaşamağımıza görə Milli Qurtuluş Gününə borcluyuq. Bu bayram bizim üçün bir də ona görə müqəddəsdir ki, o, ulu öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır".***

İyunun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Fələstin dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nəssir Əbdül Kərim ilə görüşdü.

İyulun 23-də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyası keçirildi. 2013-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları müzakirə edildi. İlin ikinci yarısında da işlərin uğurla həyata keçirilməsinin vacibliyinin vurğulandığı sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bir fikri xüsusilə diqqət çəkdi: ***"Qəzetlər, televiziya və radiolar tənqidi materialların hazırlanmasından çəkinməməli, nöqsanlar tənqid olunmalı, bununla yanaşı, tarix və vətənpərvərlik mövzularına aid materialların verilməsini də diqqət mərkəzində saxlamalı, mətbuat hər bir vətəndaşımızda vətənpərvərlik, yurd sevgisi, milli duyğular oyatmalı, milli dəyərlərimiz və milli mədəniyyətimiz təbliğ edilməlidir.***

***Muxtar respublikanın bütün müəssisə və təşkilatları "Heydər Əliyev ili"ni yüksək nailiyyətlərlə başa vurmaq üçün kəmiyyətlə yanaşı, keyfiyyət amilinə də ciddi diqqət yetirməlidirlər".***

Avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsiminə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar, sentyabrın 12-də isə elm və təhsil müəssisələrində qarşıda duran vəzifələrlə əlaqədar müşavirələr keçirildi.

Ötən ilin ən böyük siyasi hadisəsi sayılan prezident seçkilərinin Naxçıvan Muxtar Respublikasında da demokratik prinsiplərə və Azərbaycanın seçki qanunvericiliyinə uyğun olaraq keçirilməsi, namizədlərə bərabər imkanların yaradılması, vətəndaş cəmiyyəti institutlarının və beynəlxalq qurumların seçkilərə hazırlıq mərhələsini və seçki prosesini sərbəst şəkildə izləməsi təmin edildi.

Azərbaycanın siyasi tarixində mühüm rol oynayan və ölkənin əsas siyasi rəy mərkəzlərindən biri olan Naxçıvana seçki ərəfəsində beynəlxalq birliyin diqqəti daha da artdı. Sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə etməyə gələn missiyasının muxtar respublikada fəaliyyət göstərəcək müşahidəçiləri Olena Qreçcanyuk və Vida Koren Holm, sentyabrın 25-də ATƏT-in müşahidə missiyasının rəhbəri Tana de Zuluetanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

2013-cü il oktyabrın 9-u Azərbaycanın tarixinə növbəti prezident seçkiləri günü kimi düşdü. Muxtar respublika əhalisi mütəşəkkilliklə seçkilərdə iştirak etdi və naxçıvanlılar Heydər Əliyev yolunu dəstəklədiklərini bir daha təsdiqlədilər.

Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin muxtar respublikamıza yeni təyin olunmuş Baş konsulu Əli Rza Akıncı ilə görüşdü.Türkiyə və Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələrin uğurla inkişaf etdiyini bildirən Ali Məclisin Sədri möhkəm təməllər üzərində qurulan münasibətlərin məmnunluq doğurduğunu qeyd etdi və Baş konsula diplomatik fəaliyyətində uğurlar arzuladı.

Oktyabrın 31-də Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu işə başladı. Forum çərçivəsində Azərbaycana gəlmiş xarici qonaqların bir qrupu Naxçıvan Muxtar Respublikasına səfər etdi. Noyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Məclisinin Sədri Avtandil Beridze ilə görüşdü. Görüşdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasındakı əlaqələrin qədim tarixə və dərin köklərə malik olduğu qeyd edildi, əlaqələrin yeni strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirildiyi vurğulandı. Qeyd olundu ki, hər iki muxtar respublikanın turizm, təhsil, səhiyyə, iqtisadi-ticarət və nəqliyyat sahələrindəki münasibətləri məmnunluq doğurur.

Noyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Jan Qabrielseni, noyabrın 28-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İrfan Siddiq ilə görüşdü.

İlin siyasi yekunu dekabr ayının 28-də oldu. Həmin gün keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları dinlənildi, Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsi təsdiq edildi. Sessiyada Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı dinlənildi və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) seçildi. Sessiya daha bir tarixi-siyasi qərarla yaddaqalan oldu. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə 2014-cü il muxtar respublikada "Muxtariyyət ili" elan edildi.

***Beləliklə, yola saldığımız il ölkəmizin, eləcə də muxtar respublikamızın tarixində həm də qazanılan siyasi uğurlarla yaddaqalan oldu. Bu uğurlar isə keçilən yolun nəticəsi, qarşıdakı illərdə qazanılacaq uğurların səbəbidir.***

**Elnur KƏLBİZADƏ**

***Muxtar respublikada nail olunmuş sosial-iqtisadi inkişaf özünü bütün sahələrdə göstərmiş və bu proses əhalinin maddi-rifah halının yüksəlməsinə səbəb olmuşdur. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü və davamlı tədbirlərin nəticəsidir ki, ötən il bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği artaraq 377 manata çatmışdır.***

## Əməkhaqqı yüksəlir, gəlirlər artır, əhalinin maddi-rifah halı daha da yaxşılaşır

Əməkhaqqı artımı, öz növbəsində, əhali tərəfindən yeni istehsal və xidmət sahələrinin yaradılmasını bir qədər də sürətləndirmiş, bu isə əhali gəlirlərinin daha da artmasına stimul olmuşdur. Daha dəqiq desək, bəhs edilən dövrdə əhalinin gəlirləri 2012-ci ilə nisbətən 7 faiz artaraq 1 milyard 737 milyon manatdan çox olmuşdur.

Gəlirlərin həcminin artması özünü əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsində, istehlak bazarında əmtəə dövriyyəsinin və pullu xidmətlərin artımında da göstərmişdir. Belə ki, 2013-cü ildə əhaliyə 1 milyard 289 milyon manatdan çox istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir.

## Operativ vergi nəzarəti tədbirləri gücləndirilir

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, 2013-cü il ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 136 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.***

Həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 23 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 53 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb. Operativ vergi nəzarəti tədbirləri zamanı 2 vergi ödəyicisində 3 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edilməsi, 21 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 21 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olmaları, 6 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib. Vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən şəxslərin aşkar edilməsi ilə bağlı həyata keçirilən nəzarət tədbirləri zamanı 10 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərdiyi məlum olub. Aparılan operativ nəzarət işləri zamanı tərtib edilmiş 19 min 417 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin tamamilə büdcəyə ödənilməsi təmin edilib.

Qeyd olunan dövr ərzində 167 obyektdə nəzarət-kassa aparatları quraşdırılıb.

Məlumatda o da bildirilir ki, 2013-cü ildə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 27 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 34 min 880 manat dövriyyə artımına nail olunub.

## Fənn olimpiadalarının ikinci turu keçirilib

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən aldığımız məlumata görə, yanvar ayının 12-də muxtar respublikanın 7 rayon mərkəzində və Naxçıvan şəhərində mərkəzləşmiş qaydada fənn olimpiadalarının rayon mərhələsi üzrə ikinci turu keçirilib. IX-XI sinif şagirdləri arasında keçirilən olimpiadada 958 məktəbli iştirak edib. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən göndərilən sualların cavablandırılması qaydaları haqqında əvvəlcə şagirdlərə məlumat verilib. "Azərbaycan dili və ədəbiyyat", "Azərbaycan tarixi", "riyaziyyat", "fizika", "kimya", "biologiya" və "informatika" fənlərini əhatə edən olimpiadada şagirdlərin fəallığı təmin olunub.

Bilik yarışının qalibləri respublika üzrə keçiriləcək olimpiadada iştirak etmək hüququ qazanacaqlar.

**Xəbərlər şöbəsi**

# Xalqa xidmət yolu

***Yəqin, çox az adam tapılar ki, o, hədəflərinə çatmaq üçün rahat yolu bir tərəfə qoyub, daş-kəsəkli cığırları əziyyətlə keçərək macəra axtarsın. Amma yol yoldaşının tərəddüdlərinə rəğmən, özünə heç keçilməmiş yeni yol seçən, bununla da, bağlı olduğu torpağının, elinin, obasının həyatını kökündən dəyişdirən, insanların qaranlıq, buz kimi soyuq evlərində tükənmiş arzularını yenidən oyadıb geniş kölgəli xan çinarlar qədər böyüdən ürəkli insanlar da var ki, məhz onların "yoruldum" demədən xidmətləri ilə salınan həmin yolda indi hər kəs rahatlıqla öz həyatını qurur, səhər işinə, axşam da evinə tələsir.***

İnsan ömrü bir ağaca bənzəyir. Ömründə heç olmasa bircə ağac əkən də yaxşı bilir ki, bağban öz nübarının yolunu necə səbirsizliklə gözləyir və onun üçün nə qədər cəfa çəkir. Bu, elə bir hissdir ki, o, ilbəil böyüyüb ərsəyə gələn həmin ağacın kökləri qədər dərindir. Amma nə qədər möcüzəli olsa da, bu arzu həmişəyaşardır. Çünki bu hissin qidası kökün bağlı olduğu torpaqdandırsa, onun şaxələnməsi bu torpağın rişəsini cana hopduran suyun səxavətindəndir. Beləcə, harda su, torpaq varsa, orda həyat, orda həyatını bu torpağa bağlamış insan vardır. O insanın isə bir məqsədi – ona miras qoyulmuş xalqa xidmət yolunu yaşatmaq var.

İnkişaf və tərəqqi hər bir insanın öz həyatında görmək istədiyi, onu yaşamaq istədiyi bir arzudur. Buna qovuşmaq isə təkcə insanın istəyi ilə bitməyib, onun həyatda öz yerini tutması ilə çox bağlıdır. İnkişaf o zaman mümkündür ki, iş-peşəsindən asılı olmayaraq, hər bir insan cəmiyyətin ondan gözlədiyini edə bilmək üçün bütün gücünü ortaya qoysun, fədakarlıq etsin. Çünki cəmiyyət canlı orqanizm kimi elə bir mükəmməl sistemdir ki, onun da çox zaman qısa bir təlatümdən sonra özünə gəlməsi üçün illər, bəzən də on illər tələb olunur. Bu, ötən əsrin 90-cı illərinin əvvəlində dərin sosial-iqtisadi böhran və hərbi təcavüzlə üz-üzə qalmış ölkəmizin, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının son iyirmi ilə yaxın müddətdə keçdiyi çətin və şərəfli inkişaf yolunun da ən qısa essesidir. Çünki Naxçıvan və naxçıvanlılar, Naxçıvana rəhbərlik etmiş müdrik şəxsiyyətlər Azərbaycanın yaxın tarixində elə bir qəhrəmanlıq səhifəsi yaratdı ki, indi oturub keçmişi vərəqlədikdə həmin səhifələrdəki qızıl hərflərlə yazılmış sətirlər aydın görünməkdədir. Bu tarix dünyanı dəyişdirməsə də, blokada məngənəsinə salınmış bütöv bir regionu nəinki məhv olmaq təhlükəsindən qurtardı, hətta onu dəyişən dünyadan heç də geri qalmayan bir səviyyəyə qaldırdı. Beləliklə, Naxçıvanın qaranlıq gecələrində onun xilaskarı xalqımızın ümummilli lideri Heydər Əliyevin lampa işığında işləyib hazırladığı həyati qərarlardan başlayan yeni dövrün tarixi sonrakı illərdə onun layiqli davamçıları ilə yazılaraq gecə-gündüz gözoxşayan çıraqban Naxçıvanı hasilə gətirdi.







XXI əsr sürət və inkişaf dövrüdür. İnkişafın isə elə qanunları vardır ki, buna əməl olunmasa, dünən görülmüş bir iş bugünkü tələbləri ödəməyərək, on il əvvəlkiymiş kimi yerində sayacaqdır. Dinamik inkişaf dediyimiz və cəmiyyətin hərtərəfli inkişafını şərtləndirən belə qanunlar isə işgüzarlığa elə bir yanaşma tələb edir ki, bu zaman quruculuq regionunda hər kəsin maraqları təmin olunsun. Bu fikir çoxları tərəfindən deyilsə də, çox çətin formuldur və onun üzərində düşünənlərin heç də hamısı son nəticədə uğurlu olduqlarına inanmırlar. Əlbəttə, bu, elə bir məsələdir ki, onun həlli üçün heç də hansısa səlis və ya qeyri-səlis məntiq, yaxud iqtisadi-riyazi hesablamalarla əsaslandırılmış proqramlar bəs etməyə bilər. Yaxşı iqtisadçılar da bilirlər ki, tarixdə məhz bu yollarla hətta böyük ölkələrin iqtisadiyyatı makroiqtisadi tarazlığa, cəmiyyəti də sabitliyə qovuşdurulmuşdur. Bu isə çox vacibdir, axı iqtisadiyyat hər şey deməkdir. Məhz iqtisadiyyatın inkişafı ilə cəmiyyətdə digər sosial-mədəni tələbatlar da yada düşür, onların ödənilməsinə çalışılır. Ona görə də iqtisadiyyatı tənəzzül etmiş bir regionun gələcəyini qurmaq üçün elmi təsəvvürlərlə yanaşı, insan amilinə də ehtiyac yaranır. Bu, elə bir amildir ki, o, son məqsədə çatmaq üçün hər addımda özünü qətiyyət və dünyagörüş, təcrübə və səriştə, sədaqət və inamda nümayiş etdirir, insanı bəzən 16 saatlıq iş rejiminə, bəzən də məzuniyyətsiz illərə alışdırır. Qarşıda başqa bir alternativ seçimin olmadığını, qonşu payının da davamlı olmayacağını biləndən sonra bu torpağın hər övladının fədakarlığından üstün heç bir inkişaf amili görünmür. Bu, elə bir gücdür ki, o, qışın buz kimi soyuğunda da, yayın 40 dərəcə qızmarında da heç dayanmadan irəliyə doğru düşünən rəhbərinin ətrafında sıx birləşdi və dünyada bənzərinə çətin rast gələnən dözüm və yurd sevgisi örnəyi göstərdi. Bizim səbir və sədaqətimiz də mükafatsız qalmadı. Və beləcə, bir də baxıb gördük ki, həmin o kosmos əsrində kerosin lampası şüşəsinin əllərdə qıt satıldığı Naxçıvandan elektrik enerjisi ixrac edən Naxçıvana gəlib çatdıq.

Dəyişimi hiss etmək üçün onu canlı yaşamaq lazımdır. Amma təəccüblü odur ki, həyatın çox sürətli axını içində nəinki 15-20 illik dinamikanı, heç 2-3 illik fərqi də gözlə tutmaq mümkün olmur. Bu, tamamilə təbiidir və insanlar öz həyatlarını daha keyfiyyətli qurmaq üçün inkişaf edən dünyada nə varsa, onları öz həyatlarında görmək istəyirlər. Amma tarix tarixliyində qalır və bu yolun əvvəlində nə bu şəhərimiz, nə gördüyümüz bu müasir yolların uzanıb getdiyi o müasir kəndlər, nə bol dükan-bazar, nə də isti ev-eşik var idi. Xırda bir şey almaq üçün xarici bazarlara qaçan naxçıvanlılar artıq texnologiya idxal edib, özü istehsal ilə məşğul olur, xarici bazarlara mal göndərirlər. Düzgün istiqamət verib, işinə qayğı göstərsən, bizim sahibkarların görə bilməyəcəyi bir iş varmı? Sement və avtomobil zavodları, ərzaq məhsulları ilə 100 faiz təminat, cinayətsiz region statusu, ixracın idxalı üstələməsi, inşa olunan, yaxud yenidən qurulan yüzlərlə məktəb binası, səhiyyə ocağı, inzibati bina, kənd mərkəzi, yaradılan istehsal müəssisələri Şərqdə doğan Günəşin, inkişafın "Naxçıvan modeli"nin bəhrələridir. Məqsədlər ali, hədəflər geniş olanda isə keçiləcək hələ çox yol vardır. Çünki bu, xalqa xidmət yoludur.

# Kənd infrastrukturu:
## sosial inkişaf və müasir həyat tərzi



Culfa rayonunun Kırna kəndindən görünüş

***Kənd həyatı sadəliyi və gözəlliyi ilə fərqlənən, həm də özünəməxsus qayğıları olan bir yaşayış tərzidir. Səs-küydən uzaq, yaşıllıq içərisindəki kənd mənzərəsi öz cəlbediciliyi ilə şəhər həyatının intensivliyindən yorulanların sevimli istirahət yeri, təbii bir rekreasiya məkanıdır.***

Hələ min illər əvvəl iri şəhərlər meydana gəlməmişdən kəndlər insanların ilk yaşayış məskəni, dədə-baba torpağı olmuşdur. Kəndlərin, əsasən, çay yataqlarında, bərəkətli vadilərdə, yol kənarlarında və hətta ən ucqarlarda da yerləşməsinin özünəməxsus səbəbləri vardır. İnsanlar hazır təbii şəraitdən və coğrafi mövqedən istifadə edə bilmək, habelə təhlükələrdən də qorunmaq üçün müvafiq yurd yerləri seçmiş, beləliklə də, ilk kənd yaşayış yerləri yaranmışdır. Qədim tarixi hadisələrin şahidləri kimi kəndlərimizin adlarında, sakinlərinin həyat tərzində, adətlərində, mətbəxində yaşayan və indiyə qədər bizə gəlib çatmış zəngin irs bu gün də ən qiymətli milli dəyərlərimiz kimi öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Müasir Azərbaycan kəndi dedikdə təkcə sakinlərinin bir-birini yaxşı tanıdığı bir ərazi vahidi deyil, eyni zamanda milli dəyərlərimizin qorunub saxlanıldığı, sosial-mədəni həyatımızın bütün çalarlarına sahib, iqtisadi inkişafda şəhərdən heç də geri qalmayan bir yaşayış yeri başa düşülür.

Kənddə yaşayanlar, yaxud şəhərdə yaşayıb, necə deyərlər, bir ayağı kənddə olanlar kəndin qayğıları ilə yaxşı tanışdırlar. Kəndə qonaq kimi gələnlərdən fərqli olaraq, onlar bu yerlərdə "iş saatı"nın səhər saat 6-dan başlayıb göz gözü görməyənə qədər davam etdiyini, torpağa atılan hər toxumun, əkilən hər fidanın bəhrəsinin hansı zəhmətlərlə başa gəldiyini, erkən yağan qarın, qəfil dolu və leysanın, quraq keçən yayın, gecikən yazın yaratdığı çətinlikləri yaxşı bilirlər. Bütün ömürlərini kəndə, onun inkişafına həsr etmiş bu insanlara görə isə çəkilən zəhmətin sonunda əldə olunan torpaqətirli nemətlərin dadını şəhərdəki dost və qohumlarla bölüşməkdən gözəl heç nə yoxdur. Çünki bu kəndli, sadəcə, təsərrüfatçı deyil, həm də təmənnasız neçə-neçə peşə sahibləri yetişdirmiş müəllim, 24 saat həmkəndlilərinin təcili yardımına hazır olan həkim, təqaüdünü minbir fərəhlə toplayıb universitetlərə qəbul imtahanlarında ölkə birincisi olmuş nəvəsinə cibxərcliyi verən baba, əlliillik cehizlərini ən dəyərli xatirə kimi nəvəsi üçün qoruyub saxlayan nənə, Vətənin müdafiəsinə həmişə hazır olan gənclərdir.

Yaman günün ömrü az olar!.. Bir gün atamın bir dağ kəndində yaşayan köhnə dostuna baş çəkdim. Çoxdan görüşmürdük. Həyətdəki arı pətəklərinə baxmağa hazırlaşırdı. "Nə var, nə yox, bugünkü güzəranınız necədir?" – deyə soruşdum. O, əvvəlcə sanki bütün ümidlərin tükəndiyi, hər şeyin qıta çıxdığı blokadanın ilk illərini xatırladı.

– Amma, çox şükür, bax o nəvəm ötən il universitetə qəbul olunmuşdur. Bir həftə sonra da imtahanları başlayacaq. Onun üçün universitetdə yaradılmış şərait kimi, bizim özümüzün də bir sıxıntımız yoxdur. Nəqliyyat, rabitə öz qaydasında işləyir. Kənddə əhaliyə elə şərait yaradılmışdır ki, bəzən kənddə, ya şəhərdə yaşadığımızı unuduruq. Təqribən 50-60 il bundan öncə kəndimizə bir avtomobil gələndə hamını heyrət bürüyürdü. İndi, maşallah, hər həyətdə bir avtomobil var. Özü də çoxu xarici maşınlardır. 10-cu sinifdə oxuyan nəvəm o gün çağırıb ki, baba, gəl, gör kimi görürsən? Bilirsən də, yaxşı oxuduğuna görə ona kompüter hədiyyə ediblər. O da, nə bilim, nəsə qoşub, bir də baxıram ki, qonşumuzun Bakıya köçmüş oğlu kompüterdən mənə baxır. Ay qızım, bu nədir? "Baba, internet dövründəyik", – deyir. Xeyli söhbət elədik. Dedi, darıxıram, kəndə qayıdacağam.

Yadımdadır, o vaxt rəhmətlik atası onu yola salmağa maşın da tapa bilmirdi. İndi dediyinə görə, güzəranı pis deyil, amma yurd çəkir adamı, xüsusən yaşlandıqca. O vaxtdan 15-20 il keçir. İndi gələcək evlərinə – hava limanından evlərinə qədər gördüyünə inanarmı? Bu kəndə bir neçə il qabaq geniş yol çəkilmişdir. Kənd mərkəzində təzə-təzə binalar: məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilmişdir. Bir sözlə, insanların rahat yaşayışı üçün hər cür şərait yaradılmışdır. Bu sözləri ona deyəndə fikri dəyişildi. Dedi ki, oraya gəlməyimi tezləşdirəcəyəm, gələn həftə kənddəyəm. Düzdür, həyətləri ot-alaf içindədir, amma fasiləsiz qazı, suyu, elektriki var. Bunların hamısını dövlətimiz ondan xəbərsiz yaratmışdır. Qonşu kimi də bizə düşən o olar ki, maşını verərəm böyük nəvəmə, gedib onları qarşılayar.

Donub qalmışdım. Bax buna deyərəm ləzzətli kənd həyatı. Adı kənddir, şəhərdən nə fərqi oldu ki? Amma, hər halda, təmiz havası, suyu, bir də torpağa bağlı belə bacarıqlı insanları var.

Allah onların təpərini qüvvətli, dövlətimizi daha da qüdrətli etsin.

***Bəli, bu gün şəhərlə kənd arasındakı fərq həm həyat tərzi, həm də infrastruktur olaraq aradan qaldırılmışdır. Kəndlərimizdə istifadəyə verilən kənd mərkəzləri, ticarət obyektləri, bilik və sağlamlıq ocaqları, kəndlərimizə çəkilən rahat avtomobil yolları, göstərilən nümunəvi rabitə xidməti bu fərqin aradan qaldırılmasında əsas göstəricilərdəndir. Təkcə 2013-cü ildə muxtar respublikada 20 kənd mərkəzi, 21 xidmət mərkəzi istifadəyə verilmişdir. Bir sözlə, indi Naxçıvanın kəndləri şəhər görkəmindədir. Bütün bunlar son 18 ilin bəhrələridir.***

Səhifəni hazırladı: Əli CABBAROV

# Yeniləşən NAXÇIVAN



Düşmənə göz dağıdır Qeyrət qalam SƏDƏRƏK,
Düşmənin qabağında qəhrəman kimi durub.
İlbəil böyüyərək, daim gözəlləşərək,
Zəhmətə qatlaşaraq hüsnünə zinət vurub.



Gedin, gəzin-dolanın, hər kəndi ayrı aləm,
Gül-çiçəyə bürünüb naz-qəmzəli ŞƏRURum.
Bura hər gəlişimdə yenə heyrətlənirəm,
Bu dünyaya sığmayır sevincim və qürurum.



Hələ yeni yaranıb, tamam deyil on yaşı,
Bir çölün ortasında gülə döndü KƏNGƏRLİ.
Qayğısına qaldıqca onun hər vətəndaşı,
Göz oxşayan obaya, elə döndü Kəngərli.

BABƏKin hər tərəfi baxdıqca könül açır,
Gündən-günə çoxalır abadlaşan binalar.
Hər qarış üzə gülür, hər tərəf şəfəq saçır,
Bu yerlərdən hələ çox yazılacaq dastanlar.



CULFAda tariximin Əlincə zirvəsi var,
Buranın insanları yenə yaradır, qurur.
Tariximdən güc alıb abadlaşır bu diyar,
Ən ucqar kəndində də gözəlliklər bərq vurur.



Hər gülü, hər çiçəyi minbir dərdin davası,
ŞAHBUZa min gözəllik bəxş eyləyib Yaradan.
Cənnəti xatırladır Batabatın havası,
Belə yerdə düz yüz il ömür sürər hər insan.





Nuh babam qədəm qoyub ilk dəfə bu yerlərə,
Gəmiqaya başərin ikinci vətənidir.
Hər kimin yolu düşsə ORDUBAD tərəflərə,
Deyəcək ki, bu torpaq gözəllik məskənidir.



Gecəsi bir mənzərə, gündüzü bir mənzərə,
Onun şanı-şöhrəti gəzir bütün dünyanı,
Məftun olur hər qonaq bizim doğma şəhərə,
Tanrı bir rəssam kimi bəzəyib NAXÇIVANı.



Eşqinlə cuşa gəldi yenə şair ilhamı,
Səni vəsf etmək üçün qəlbimdə çox sözüm var.
Gözəlliyə büründü muxtar respublikamı,
Vətənə bağlı olan, könül verən insanlar.

Elxan YURDOĞLU

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 38